

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 220 (21.372)

*11 noyabr 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşezin etimadnaməsini qəbul edib.

Səfir Orelia Buşez fəxri qarovul dəstəsinin qarşısından keçib.

Xanım Orelia Buşez etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə və ədalətli həll olunması, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən enerji, investisiya qoyuluşu, yüksək texnologiyalar, kosmik sənaye, infrastruktur, nəqliyyat, mədəniyyət və digər sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-gyunun etimadnaməsini qəbul edib.



## Naxçıvanda payız mövsümünün ilk iməciliyi keçirilmişdir



Muxtar respublikada iməciliklər yolu ilə yeni meyvə bağlarının salınması ənənə halını almışdır. Son illər muxtar respublika ərazisində 4 min hektardan artıq meyvə bağı salınmışdır. Hər il bu bağlarda bol meyvə yetişdirilir. “Kənd təsərrüfatı ili”ndə digər aqrar tədbirlərlə yanaşı, bağçılığın inkişafına da diqqət artırılmışdır. Payız iməcilik mövsümündə də yeni meyvə bağlarının salınması nəzərdə tutulmuşdur.

Noyabrın 7-də Naxçıvan Muxtar Respublikasında ictimaiyyətin nümayəndələri, idarə, müəssisə və təşkilatların kollektivləri iməciliyə çıxmış, yeni meyvə tingləri əkmiş, yaşıllıqlara qulluq göstərmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Naxçıvan-Sədərək avtomobil yolunun kənarında keçirilən iməcilikdə iştirak etmiş, ərazidə yeni püstə bağı salınmışdır.

Püstə bağı üçün nəzərdə tutulan ərazi 80 hektardır. Uzun müddət əkilməyən bu torpaqlarda meliorativ və aqrotexniki tədbirlər görülmüş, torpaq qatı əkin üçün yararlı vəziyyətə gətirilmişdir. Uzunoba Su Anbarından yeni su xəttinin çəkilməsi və Kəngərli rayonu ərazisində suvarma şəbəkəsinin qurulması bu ərazinin də dayanıqlı su təminatına imkan verir. İməcilik iştirakçıları 35 hektar sahədə 8 min ədəd püstə və 1000 ədəd müxtəlif meyvə tingləri əkərək suvarmışlar. Gələcəkdə ərazinin digər hissəsində də püstə tingləri əkiləcək və damcılı suvarma şəbəkəsi qurulacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, yeni salınan püstə bağında becərmə tədbirlərinin aqrotexniki qaydalar əsasında aparılması və əkin işinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Culfa rayonunun Qızılca kəndi abad yaşayış məntəqəsinə çevrilmişdir

Müstəqil Azərbaycanın sürətli inkişafı muxtar respublikanın hər bir bölgəsində aydın hiss olunur. Yaşayış məntəqələrində müasir təhsil, səhiyyə, mədəniyyət müəssisələri, inzibati binalar tikilib istifadəyə verilir, yollar yenidən qurulur, yeni iş yerləri açılır.

Əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edən bu tədbirlər Culfa rayonunda da uğurla davam etdirilir. Bu il rayonun Qızılca kəndində geniş tikinti-quruculuq işləri aparılmışdır.

## Qızılca kənd avtomobil yolu yenidən qurulmuşdur

Muxtar respublikada yol infrastrukturunun müasirləşdirilməsi tədbirləri Qızılca kəndini də əhatə etmişdir.

Noyabrın 10-da Qızılca kənd avtomobil yolunun açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, yolda aparılan yenidənqurma işləri ilə maraqlanmışdır.

Bildirilmişdir ki, 2,4 kilometrlik yol genişləndirilərək asfalt örtük salınmış, avtomobillərin rahat hərəkəti təmin edilmişdir. Yenidənqurma işləri zamanı yolun üzərində 12 su keçidi və beton kanal tikilmiş, kənddaxili yollar abadlaşdırılmışdır.



## Qızılca kənd tam orta məktəbinin binası müasir tələblərə cavab verir

Noyabrın 10-da Qızılca kənd tam orta məktəbinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məktəbin direktoru Namiq Nəsirov çıxış edərək demişdir ki, Qızılca kəndində aparılan abadlıq-quruculuq tədbirləri kənd həyatının bütün sahələrinin, o cümlədən təhsilin də inkişafını təmin etmişdir. Məktəbdə tədrisin müasir tələblərə uyğun qurulması üçün bütün tədbirlər görülmüşdür. Bu da pedaqoji kollektivin məsuliyyətini artırır. Müəllimlər yaradılan şəraitdən istifadə edərək kənddə təhsilin səviyyəsini yüksəldəcək, ölkəmizə, xalqımıza layiq vətəndaşlar yetişdirəcəklər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qızılca kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***“Hər bir ölkənin aparıcı qüvvəsi onun yüksək biliyə, yüksək ixtisasa malik olan insanlarıdır”***, – fikrini xatırladaraq demişdir: Ulu öndərimizin bu tövsiyələrinə uyğun olaraq, ölkəmizdə təhsilin bütün pillələri üzrə hərtərəfli tədris şəraiti yaradılmışdır. Təhsilə göstərilən qayğının nəticəsidir ki, ölkəmizdə orta ümumtəhsil, peşə, orta ixtisas və ali təhsil pillələri üzrə kadr hazırlığı həyata keçirilir. İstər ölkəmizdə, istərsə də xaricdə təhsil alan gənclərimiz ixtisaslı kadr kimi yetişərək müxtəlif sahələrdə çalışırlar. Bu da ölkəmizin möhkəmlənməsinə, gələcək inkişafına xidmət edir.



Ali Məclisin Sədri demişdir: Məktəbin qarşısında duran əsas vəzifə yaxşı bilik vermək, gənclərin marağını nəzərə alaraq müəyyən bir peşəyə istiqamətləndirmək və gələcəyin əsl vətəndaşını yetişdirməkdən ibarətdir. Hər bir məktəbin fəaliyyəti onun yetişdirdiyi təhsilli və vətənpərvər gənclərlə ölçülür.

*Ardı 2-ci səhifədə*





Əgər məktəbdə təhsil alan gənc vətənpərvərdirsə, bir peşəyə meyillidirsə və öz gələcəyini, ölkəsinin gələcəyini düşünürsə, deməli, o məktəbin fəaliyyəti hədər getməmiş, məktəbdə təlim-tədris və tərbiyə işi düzgün qurulmuşdur. Qızılca kənd tam orta məktəbinin nailiyyətləri onu deməyə əsas verir ki, məktəbdə tələbkarlıq və nizam-intizam vardır. Bu prinsip davam etdirilməli, nailiyyətlər daha da artırılmalıdır.



Ali Məclisin Sədri Qızılca kənd tam orta məktəbində bundan sonra da təhsilli, vətənpərvər gənclər yetişdiriləcəyinə əminliyini bildirmiş, qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür etmiş, onlara tədrisdə uğurlar arzulamışdır.

Məktəblə tanışlıq zamanı məlumat verilmişdir ki, 3 mərtəbəli binada 12 sinif otağı, o cümlədən 3 elektron lövhəli sinif, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, kitabxana, bufet və idman zalı vardır. Qızılca kənd tam orta məktəbində 11 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuşdur.

Məktəbin kitabxana fondunda 2700-dən artıq kitab vardır. Burada bütün fənlərə aid dərsliklər və elmi ədəbiyyatlar qoyulmuşdur. Həmçinin şagirdlərin istifadəsinə 2150 ədəd bədii ədəbiyyat verilmişdir.

Muxtar respublikada ümumtəhsil məktəblərinin informasiya texnologiyaları ilə təminatı, təhsilin informasiyalaşdırılması, xüsusilə yaşayış məntəqələrində sürətli internetə çıxış imkanlarının yaradılması distant tədrisin tətbiqinə, təhsilin internet üzərindən təşkilinə şərait yaradır. Artıq məktəblərdə quraşdırılan elektron lövhələr ümumtəhsil məktəbləri arasında, eləcə də məktəblərlə muzeylər arasında interaktiv əlaqələrin qurulmasına imkan verir.

Elektron lövhəli sinifdə muxtar respublikanın 200 ümumtəhsil məktəbi ilə Cəlil Məmmədquluzadənin ev-muzeyi arasında distant dərs keçirilmişdir.

Ali Məclisin Sədri demişdir ki, ölkəsinin tarixini, mədəniyyətini, milli dəyərlərini, adət-ənənələrini bilməyən, görkəmli şəxsiyyətlərini tanımayan gənclər vətənpərvər kimi böyüyə bilməzlər. Ümumtəhsil məktəbləri ilə muzeylər arasında yaradılan əlaqə məhz bu mühüm vəzifənin həyata keçirilməsinə xidmət edir. Ona görə də muzeylərlə əlaqələrin qurulması və distant dərslərin təşkili bundan sonra da davam etdirilməlidir.

Məktəb yaşlarından idmanla məşğul olmaq uşaqların fiziki inkişafını gücləndirir, onlarda idmana maraq oyadır. Bu da idmanın kütləviliyinin təmin olunması və gənclərin sağlam böyüməsi baxımından mühüm əhəmiyyət daşıyır. Qızılca kənd tam orta məktəbinin geniş idman zalı fiziki tərbiyə dərslərinin səmərəli keçirilməsinə şərait yaradır.

Hərbi vətənpərvərlik tərbiyəsi gənclərin əsl vətəndaş kimi formalaşmasında mühüm amildir. Məktəblərdə hərbi kabinələrin qurulması bu sahədə həyata keçirilən tədbirlərin intensivliyini təmin edir. Qızılca kənd tam orta məktəbindəki hərbi kabinə hərb elminə aid ilkin nəzəri vasitələrlə təchiz olunmuşdur.

Baxış zamanı məlumat verilmişdir ki, məktəbdə şagirdlər hərb elminə böyük maraq göstərirlər. Hər il məktəbin şagirdlərindən Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunurlar. Müasir hərbi kabinə ilkin hərbi hazırlıq fənninin daha səmərəli tədrisinə və gənclərin hərb elminə marağının artırılmasına imkan verəcəkdir.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir: Təhsilli, vətənpərvər gənc yetişdirmək çətin və məsuliyyətli işdir. Bu işi düzgün qurmadan cəmiyyətin inkişafını təmin etmək mümkün deyil. İnsan o zaman cəmiyyətin qiymətli üzvü hesab olunur ki, o, öz bilik və bacarığı ilə ölkəsinə xeyir versin. Təhsilli, vətənpərvər və peşə sahibi olan gənclərin sayı nə qədər çox olarsa, ölkənin, cəmiyyətin inkişaf və tərəqqisi də bir o qədər çoxşaxəli və davamlı olar. Bu mənada hər bir müəllimin dövləti və xalqı qarşısındakı xidməti onun yetişdirdiyi gəncin gələcək fəaliyyəti ilə ölçülür. Çünki məktəbdə gənclərin əsl vətəndaş kimi hazırlanması müəllimlərin fəaliyyətindən və yaradılan şəraitdən asılıdır. Qızılca kənd tam orta məktəbində pedaqoji kollektivin səmərəli fəaliyyəti üçün bütün imkanlar yaradılmışdır. Məktəbin lazımi tədris vasitələri ilə təminatı imkan verir ki, nailiyyətlər daha da artırılsın. Pedaqoji kollektiv yaradılan şəraitin qarşılığını verməli, gənclər vətənpərvər və peşə sahibi kimi yetişdirilməlidirlər.

Müəllim Müşərrəf Əhmədova kollektiv adından minnətdarlıq edərək demişdir: Bu cür müasir məktəb binasının tikilib istifadəyə verilməsi, göstərilən diqqət və qayğı müəllimləri öz işinə daha da ruhlandırır. Gənc müəllim kimi əmin edirəm ki, yaradılan şəraitdən səmərəli istifadə edərək göstərilən etimadı doğruldacaq, bilikli, vətənpərvər, ölkəmizə və dövlətçiliyimizə sədaqətli gənclər yetişdirəcəyik.

Məktəbin həyətində də geniş abadlıq işləri görülmüşdür.

## Qızılca Kənd Mərkəzi istifadəyə verilmişdir





Muxtar respublikanın kəndlərində vahid mərkəzdən idarəetmə mexanizmi formalaşdırılır. Son illər tikilən müasir kənd mərkəzləri bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Noyabrın 10-da Qızılca Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını etmiş və yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 2 mərtəbədən ibarət olan binada rabitə evi, feldşer-mama, baytarlıq və polis sahə məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi və 40 yerlik iclas zalı vardır.

Mərkəzdə zəngin fonda malik kitabxana sakinlərin istifadəsinə verilmişdir. Hazırda kitabxanada 8 minə yaxın ədəbiyyat vardır. Burada elmi və bədii ədəbiyyatlar qoyulmuş, kitab müzakirələrinin və digər tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılmışdır.

Baytarlıq kənd təsərrüfatının mühüm sahəsidir. Sağlam və keyfiyyətli heyvandarlıq məhsullarının istehsalı üçün epizootik və profilaktik tədbirlərin həyata keçirilməsi vacib şərtdir. Buna görə də muxtar respublikanın kəndlərində baytarlıq xidmətinin təşkilinə diqqət artırılır. Binadakı baytarlıq məntəqəsi də Qızılca kəndində bu sahədə görülən tədbirlərin miqyasını xeyli genişləndirəcəkdir.

Yeni Azərbaycan Partiyası Qızılca kənd ərazi ilk təşkilatının 70 üzvü vardır. Hazırda partiya üzvlərindən 24-ü gənc, 32-si isə qadınlardır.

Yeni Azərbaycan Partiyası Qızılca kənd ərazi ilk təşkilatının sədri Rauf Hüseynov minnətdarlıq edərək demişdir: Bu gün Qızılca kəndinin tarixinə yeni bir səhifə yazıldı. Aparılan quruculuq işləri, tikilən yeni binalar, çəkilən müasir yol insanların rahat yaşayışına hesablanmış tədbirlərdir. Bu işlər ona görə mümkün olur ki, ölkəmizdə ümummilli lider Heydər Əliyevin siyasi xətti uğurla davam etdirilir. Kəndin abadlaşması qarşımızda mühüm vəzifələr qoyur. Bundan sonra da ulu öndərin ideyalarının layiqincə yerinə yetirilməsi sahəsində səylə çalışacağıq.

Rabitə evində quraşdırılan 384 yerlik ATS keyfiyyətli rabitə xidmətinin göstərilməsinə və sürətli internetdən istifadəyə imkan verir. Burada yeni poçt bölməsi də yaradılmış, dövri mətbuatın, internet və danışıq kartlarının satışı təşkil olunmuş, POS-terminal qoyulmuşdur.

Qızılca Kənd Mərkəzindəki feldşer-mama məntəqəsində müdir, mama və manipulyasiya otaqları vardır. Məntəqədə soyuducu, ilkin tibbi yardım çantası və digər avadanlıqlar qoyulmuş, səhiyyə xidməti təşkil edilmişdir.

Ali Məclisin Sədri insanların sağlamlığının qorunması və tibbi-profilaktik tədbirlərin həyata keçirilməsi barədə tapşırıqlar vermişdir.

Kənd mərkəzinin ətrafı da abadlaşdırılmış, gülkarlıqlar salınmışdır.

*Ardı 3-cü səhifədə*

## Kənddə xidmət mərkəzi istifadəyə verilmişdir

Qızılcada əhalinin rahatlığının təmin olunması istiqamətində kompleks tədbirlər görülmüş, yeni xidmət mərkəzi tikilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində mağaza və bərbərxana fəaliyyət göstərir. Mağazada ərzaq və sənaye mallarının, xüsusən də yerli istehsal məhsullarının satışı həyata keçirilir. Mərkəzdə 2 nəfər işlə təmin olunmuşdur.

* * *

Kənddə aparılan quruculuq işləri zamanı 2138 metrlik fiber-optik kabel, 1650 metr rabitə, 2200 metr yeni elektrik xətti çəkilmişdir. Kəndin qaz və su təchizatı da yaxşılaşdırılmış, yeni tikililərə 517 metrlik qaz xətti çəkilmiş, 850 metr qaz xəttinin yeri dəyişdirilmiş, 2 supaylayıcı qoyulmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 1 noyabr 2015-ci il tarixdə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin QƏRARI

10 noyabr 2015-ci il

Naxçıvan şəhəri

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti Süleymanov Ramiz Rəhim oğlunun sədrliyi ilə, Rəyasət Heyətinin üzvləri Allahverdiyev Əli Kərim oğlu və Məmmədov Qabil Neymət oğlundan ibarət tərkibdə, Əliyeva Gülsüm Kamal qızının katibliyi,

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Qasımov Məhərrəm Əli oğlunun, sədr müavini Qədimov Əli Tofiq oğlunun, katibi Eyvazov Elnur Həsənəli oğlunun, üzvlər Hüseynov Tural Cəmaləddin oğlunun, Həsənov Tural Dünyanur oğlunun və Bayramova Vahidə Vahid qızının,

Mütəxəssislər Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları Məmmədov Məhərrəm Allahverdi oğlunun, Şirzadov Cavanşir Əli oğlunun və Rzayev Xalid Məhərrəm oğlunun iştirakı ilə

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə uyğun olaraq konstitusiya icraatı qaydasında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2015-ci il noyabrın 1-də keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi haqqında işə baxaraq hakim Məmmədov Qabil Neymət oğlunun məruzəsini, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Qasımov Məhərrəm Əli oğlunun çıxışını və mütəxəssislərin arayışını dinləyib müzakirə edərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti

**MÜƏYYƏN ETDİ:**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin 2-ci hissəsinin 1-ci bəndinə, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 8.1-ci maddəsinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 31 avqust 2015-ci il tarixli Sərəncamına əsasən 1 noyabr 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər keçirilmişdir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən 5 noyabr 2015-ci il tarixdə 45 seçki dairəsinin və 316 məntəqə seçki komissiyasının 1 noyabr 2015-ci ildə tərtib edilmiş seçkilərin nəticələri haqqında protokolları, həmçinin seçkinin ümumi yekunlarının müəyyənləşdirilməsinə dair Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 4 noyabr 2015-ci il tarixli SQ-13/2015 nömrəli qərarı və protokolu təqdim edilmişdir.

Təqdim edilmiş seçkilərin ümumi yekunları haqqında sənədlərdə 1 noyabr 2015-ci il tarixdə 45 seçki dairəsi üzrə 316 seçki məntəqəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilmiş seçkilərin nəticələri öz əksini tapmışdır.

Seçkilərin ümumi yekunları haqqında təqdim edilmiş sənədlərdən məlum olur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə 45 seçki dairəsindən passiv seçki hüququ olan 135 nəfər Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən deputatlığa namizəd kimi qeydə alınmışdır.

Səsvermə günü Naxçıvan Muxtar Respublikası üzrə 45 seçki dairəsinin 316 seçki məntəqəsində səsvermə keçirilmişdir.

Seçki sənədləri yoxlanılarkən müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi üçün yaradılmış 45 seçki dairəsini əhatə edən 316 seçki məntəqəsi üzrə aktiv seçki hüququ olan 268463 seçici ümumi seçici siyahılarına daxil edilmiş, onlardan 205166 nəfəri, yəni 76.4 faizi səsvermədə iştirak etmişdir. Səsvermədə iştirak etmiş seçicilərin 205116 nəfəri bilavasitə seçki məntəqələrində, 50 nəfəri isə qanunun tələbinə uyğun olaraq səsvermə otağından kənarda səs vermişlər. Seçki qutularında aşkar edilən 205165 bülletendən 203991 seçki bülleteni, yəni 99.4 faizi etibarlı hesab edilmiş, 1174 bülleten, yəni 0.6 faizi isə etibarsız hesab edilmişdir.

Məntəqələr üzrə seçki günü 9 ədəd korlanmış, 63288 ədəd isə istifadə edilməmiş seçki bülletenləri məntəqə seçki komissiyaları tərəfindən ləğv edilmişdir. Göstərilənlər "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 88-89-cu maddələrinin tələblərinə uyğundur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin yekunlarına dair təqdim olunmuş sənədlərin təhlilindən görünür ki, muxtar respublikanın ərazisində yaradılmış 316 seçki məntəqəsində 1 noyabr 2015-ci il tarixdə seçkilərin keçirilməsi zamanı aşkarlığı təmin etmək məqsədi ilə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 37-41-ci maddələrinin tələblərinə uyğun olaraq 1 nəfər beynəlxalq, 497 nəfər müxtəlif siyasi partiyaların müşahidəçiləri və 126 nəfər yerli müşahidəçilər seçkilərin gedişini izləmişlər.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən tələb edilmiş sənədlərin, habelə cəlb olunmuş mütəxəssislərin arayışının təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 seçki dairəsi üzrə keçirilmiş seçkilərin nəticələri barədə protokolları, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 4 noyabr 2015-ci il tarixli protokolu və onlara əlavə edilmiş sənədlər "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə cavab verir.

Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin yekunları təsdiq edilməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti göstərilənlərə əsaslanıb Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsini və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci və 93.4-cü maddələrini rəhbər tutaraq

**QƏRARA ALIR:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2015-ci il noyabrın 1-də keçirilmiş 45 seçki dairəsi üzrə seçkilərin nəticələri bütövlükdə təsdiq edilsin.
2. Qərar elan olunduğu gündən qüvvəyə minir.
3. Qərar "Şərq qapısı" qəzetində dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan tərəfindən ləğv edilə, dəyişdirilə və yaxud rəsmi təfsir edilə bilməz.

**Sədrlik edən: Ramiz SÜLEYMANOV**

## Bayrağımız milli qürurumuzdur

***"Naxçıvan" Universitetində "Bayrağımız milli qürurumuzdur" mövzusunda tədbir keçirilib. Universitetin İdarəetmə fakültəsinin təşkilatçılığı ilə keçirilən tədbiri ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev açıb.***

İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev çıxış edərək bildirib ki, ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Ona görə də özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin ən real ifadəsidir. Məhz bu baxımdan xalqımızın azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağımız bizim milli qürurumuzdur.

Vurğulanıb ki, 1918-ci il iyun ayının 24-də Dövlət Bayrağı haqqında ilk qərar verilərək üzərində ağrəngli aypara və səkkizguşəli ulduz təsvir olunan qırmızı bayraq Dövlət Bayrağı kimi qəbul olunub. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 9 noyabr tarixli qərarı ilə həmin bayraq aypara və səkkizguşəli ulduz qalmaqla üçrəngli – mavi, qırmızı və yaşıl zolaqlardan ibarət bayraqla əvəz edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə bu bayraq ləğv edilib. Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Ali Məclisinin sessiyasında qaldırılıb. Həmin sessiya Azərbaycanda müstəqil dövlət quruculuğu prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli Fərmanı ilə 9 noyabr tarixi Dövlət Bayrağı Günü elan edilib.

Tədbirin bədii hissəsində tələbələrin ifasında üçrəngli bayrağımıza həsr olunmuş şeirlər qiraət edilib, mahnılar səsləndirilib.

**Nuray ƏSGƏROVA**

***Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunmasının 20 illiyinə həsr edilmiş "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan Respublikasının Konstitusiyası" mövzusunda elmi konfrans keçirilib.***

## Konstitusiyanın qəbul olunmasının 20 illiyinə həsr edilmiş elmi konfrans

Konfransı universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq bildirib ki, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu, müstəqil Azərbaycanın dövlət quruculuğunun əsasını təşkil edən Azərbaycan Respublikasının Konstitusiyası demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat verən ali hüquqi sənəddir. Hər bir Azərbaycan vətəndaşı əsas dövlət rəmzlərindən biri olan Konstitusiyanın müddəa və prinsiplərinə əməl etməyə borcludur.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Ali Məclisin deputatı, universitetin Hüquq kafedrasının dosenti Elman Cəfərli "Naxçıvan Muxtar Respublikasının Konstitusiya təcrübəsi tarixi" mövzusunda məruzə edərək 1926-cı ildə qəbul edilən ilk, 1937 və 1978-ci illərdə qəbul edilən sonrakı konstitusiyaları müqayisəli şəkildə təhlil edib. Qeyd olunub ki, milli müstəqillik əldə edildikdən sonra 1998-ci il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Azərbaycan Konstitusiyası əsasında hazırlanmış yeni Konstitusiyası muxtar respublikanın Ali Məclisində qəbul edilib və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunub.

Naxçıvanın muxtariyyət statusunun da əks olunduğu, 6 fəsildən və 50 maddədən ibarət Konstitusiya muxtar respublikanın əvvəlki konstitusiyalarından demokratikliyi və lakonikliyi ilə fərqlənir. Bu, 1997-ci ildə Venesiya Komissiyasının Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsinə verdiyi rəydə də öz əksini tapıb.

Universitetin Sosial idarəetmə və hüquq fakültəsinin tyutoru Beyrək Cəfərov "Konstitusiyanın beynəlxalq əhəmiyyəti" adlı məruzəsində vurğulayıb ki, Azərbaycan Respublikasının Konstitusiyası 1994-cü ildə müstəqil Azərbaycanın qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə qəbul edilmişdir.



Ən son nailiyyətlərə, dünyəvi təcrübəyə əsasən hazırlanan bu Konstitusiya müasir dünya konstitusiyaları içərisində quruluşca ən mükəmməl və məzmunca ən demokratiki olmaqla Azərbaycanın dövlət müstəqilliyinin, ölkədəki insan hüquq və azadlıqlarının qarantıdır.

**Mehriban SULTAN**

# Dövlət Bayrağı Günü münasibətilə konsert

*9 Noyabr – Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə Heydər Əliyev Sarayında təşkil olunan konsert proqramının aparıcıları bildirmişlər ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncama əsasən, hər il ölkəmizdə 9 noyabr tarixi Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir. Ölkə başçısının bu sərəncamı dövlət rəmzlərinə hörmət və ehtiramın bariz ifadəsidir.*





Qeyd olunmuşdur ki, üçrəngli bayrağımızın dövlət rəmzi kimi bərpası və yüksəldilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli bir dövrdə Naxçıvana rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyev əsl vətənpərvərliklə və lider təəssübkeşliyi ilə milli dövlət quruculuğu üçün mühüm qərarlar qəbul etmişdir. 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Sovetinin sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycan dövlətçiliyinin bərpası istiqamətində bir çox məsələlər müzakirə olunmuş, bir sıra tarixi qərarlar qəbul edilmişdir. "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" Qərara əsasən, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuşdur.

Vurğulanmışdır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2007-ci il 17 noyabr tarixli Sərəncamına əsasən isə Bakı şəhərində Dövlət Bayrağı Meydanı yaradılmışdır. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılışı olmuşdur.

Diqqətə çatdırılmışdır ki, bu gün ölkəmizin digər guşələrində də yaradılan bayraq meydanları dövlət rəmzlərimizə olan sevgi və hörmətin göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 22 avqust tarixdə imzaladığı "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncam bu baxımdan mühüm əhəmiyyət kəsb edir. 2014-cü il noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasimi keçirilmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən, hər il noyabr ayının 17-nin Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməsi qərara alınmışdır.

Azərbaycan Respublikasının Xalq artisti Samir Cəfərovun, Azərbaycan Respublikasının Əməkdar artistləri İlqar Muradovun, Nuriyyə Hüseynovanın və Cahangir Qurbanovun, "Muğam Müsabiqəsi-2013" Televiziya Müsabiqəsinin qalibi Sərxan Bünyadzadənin ifa etdikləri bəstəkar və xalq mahnıları tədbir iştirakçılarında xoş ovqat yaratmışdır.

**Sara ƏZİMOVA**

# Sosial qayğıya ehtiyacı olan məktəblilərə qış geyimi verilib



Muxtar respublikada sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Onların sağlam böyümələri, təhsil almaları, cəmiyyətə inteqrasiyaları, habelə asudə vaxtlarını səmərəli keçirmələri istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası bu kateqoriyadan olan uşaqların müasir dövrün tələbləri səviyyəsində təhsil almasına, cəmiyyətə daha fəal inteqrasiyasına imkanlar yaradıb. Dövlət proqramının icrası ilə bağlı Bilik Günü ərəfəsində yuxarıda adıçəkilən kateqoriyalardan olan uşaqlara məktəbli forması, çantası və dərs ləvazimatları təqdim olunub. Həmin tədbirlərin davamı olaraq, bu kateqoriyadan olan uşaqlara qış geyimi verilib.

Bu münasibətlə noyabrın 7-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində təşkil olunan tədbirdə təhsil naziri Piri Nağıyev, əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bu kateqoriyadan olan uşaqların təhsil almaları, yaradıcılıq potensiallarının inkişafı üçün yaradılan şəraitdən, onların problemlərinin yerindəcə həll olunmasından, habelə asudə vaxtlarının səmərəli təşkilindən bəhs ediblər.

Naxçıvan şəhərində və rayonlarda keçirilən tədbirlərdə sosial müdafiəyə ehtiyacı olan, ümumilikdə, 373 məktəbli uşağa qış geyimi təqdim olunub. Təhsil Nazirliyi hər iki valideynini itirmiş 32, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sağlamlıq imkanları məhdud 261, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi isə aztəminatlı ailələrdən olan, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 80 şagirdə qış geyimi verib.

Tədbir iştirakçıları sosial qayğıya ehtiyacı olan uşaqlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, distant tədrisə cəlb olunan sağlamlıq imkanları məhdud 22 uşağa da qış geyimi evlərində təqdim olunub.

**Xəbərlər şöbəsi**

# Torpaqlardan qanunsuz istifadəyə görə məsuliyyət tədbirləri gücləndirilmişdir

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli Qanununa əsasən, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin bir sıra maddələrində dəyişikliklər edilərək müvafiq inzibati xətalara görə məsuliyyət tədbirləri gücləndirilmişdir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 88-1-ci maddəsinin yeni redaksiyasına əsasən, torpaq sahəsinin məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsinə görə fiziki şəxslər üç yüz manat miqdarında, vəzifəli şəxslər altı yüz manat miqdarında, hüquqi şəxslər üç min manat miqdarında cərimə edilirlər. Müvafiq inzibati xətanın kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədilməsinə görə isə fiziki şəxslər beş yüz manat miqdarında, vəzifəli şəxslər min manat miqdarında, hüquqi şəxslər beş min manat miqdarında cərimə edilirlər.

İnzibati Xətalar Məcəlləsinin 88-3-cü maddəsində edilmiş dəyişikliyə əsasən, vəzifəli şəxslər ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalar və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtləri pozulmaqla torpaq sahələrinin tikinti üçün ayrılmasına görə min beş yüz manat miqdarında cərimə ediləcəklər.

# Boks üzrə məşqçi-müəllimlər üçün seminar keçirilib

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və muxtar respublikanın idman federasiyalarının təşkilatçılığı ilə məşqçi-müəllimlər üçün seminarlar davam etdirilir.***



Bu qəbildən seminarların növbətisi Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Boks Federasiyasının birgə təşkilatçılığı ilə noyabrın 7-də keçirilib. Seminarda muxtar respublikanın şəhər və rayonlarından 20-dən çox məşqçi-müəllim iştirak edib.

Texniki-taktiki seminarda əvvəlcə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində boks üzrə kişilərdən ibarət milli komandanın böyük məşqçisi Nəriman Abdullayev boksçular üçün məşq aparıb.

Naxçıvan Muxtar Respublika Stadionu binasında davam etdirilən seminarda Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev çıxış edərək bildirib ki, son illərdə bütün idman növlərinin, eləcə də boksun inkişafına göstərilən diqqət öz bəhrəsini verməkdə, gənc nəslin bu idman növünə marağı artmaqda, keçirilən yarışlarda uğurlu nəticələr əldə edilməkdədir. Naxçıvanda yüksək səviyyəli yarışların və turnirlərin keçirilməsi, idmançılarımızın dünya arenasında qazandıqları qələbələr boks idman növünün muxtar respublikada inkişafından xəbər verir. Muxtar respublika boksunun dünya idman ailəsinə inteqrasiyasında bu sahənin maddi-texniki bazasının gücləndirilməsi də mühüm rol oynayır. Son illər yaradılan müasir idman infrastrukturu, eyni zamanda bu sahəyə göstərilən diqqət dəri əlcək sahiblərimizi ruhlandırıb.

Keçirilən seminarların əhəmiyyəti barədə də danışan Məmmədcəfər Əliyev deyib ki, məşqçi-müəllim heyətinin bu seminarlara cəlb olunması məşqçi-müəllimlərin yeniliklər, yeni qaydalar haqqında məlumat almasına, ümumilikdə isə boks idman növünün inkişaf etdirilməsinə bilavasitə təkan verir.

Seminarda Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi Tofiq Babanlı məşqçi-müəllimlərə Azərbaycanda boks idman növünün inkişafı, nəzəri və praktik əsasları haqqında məlumat verərək bildirib ki, bu idman növündə uğur qazanılması üçün işin nəzəri tərəfindən xəbərdar olmaq, məşqlərə cəlb olunan uşaq və gənclərin psixoloji durumuna yaxından bələd olmaq vacib məsələdir. Yarışlara çıxarılan idmançıların düzgün seçimi də qazanılan uğurların təməlini qoyan amillərdəndir.

Boks üzrə kişilərdən ibarət milli komandanın böyük məşqçisi Nəriman Abdullayev isə yeniyetmə boksçuların yarışlarda mütəmadi olaraq iştirakının əhəmiyyətindən danışıb, boks idman növündə perspektiv vəd edən uşaqların seçiminin məktəblərdə aparılmasının vacibliyinə diqqəti çəkib. O qeyd edib ki, boks idman növü ciddi nizam-intizam, dəmir iradə, yaxşı fiziki hazırlıq, cəsarət və döyüşkənlik tələb edir. Ona görə də uşaqlar arasında seçim aparılarkən məhz bu xüsusiyyətləri büruzə verən uşaqlar seçilməlidirlər.

Tədbirdən sonra həmsöhbət olduğumuz Tofiq Babanlı dedi: "Muxtar respublika boksçularının son illərdə beynəlxalq səviyyəli yarışlarda qazandıqları uğurlar sevindiricidir. Seminar çərçivəsində buradakı məşqlərdə iştirak etdik. Yerli məşqçilərin və boksçuların peşəkarlığı yüksək səviyyədədir. Bütün bunlar əminliklə deməyə imkan verir ki, Naxçıvan boksçuları qazanılan uğurlarla kifayətlənməyərək yaradılan şəraitdən səmərəli istifadə edəcək, yeni-yeni qələbələr qazanacaqlar".

Daha bir müsahibimiz Nəriman Abdullayev isə dedi ki, bu gün boks üzrə ölkə yığmasının tərkibində naxçıvanlı idmançıların olması muxtar respublikada boks idman növünə göstərilən davamlı qayğının, məşqçi-müəllimlərin əzmkar əməyinin nəticəsində mümkün olub. Bu gün keçirdiyimiz seminarda məşqçi-müəllimlərə daha çox boksun yeni qaydaları haqda məlumat verdik, onlarla fikir mübadiləsi apardıq. Ümumiyyətlə, təcrübəli məşqçi-müəllimlərin iştirak etdiyi bu seminar nəinki məşqçilər, bizim üçün də faydalı oldu.

Məlumat üçün bildirək ki, bundan öncə, noyabrın 6-da belə seminar Şərur Olimpiya-İdman Kompleksində Şərur və Sədərək rayonlarından olan məşqçi-müəllimlər üçün keçirilib. Seminarı kişilərdən ibarət milli komandanın böyük məşqçisi Nəriman Abdullayev və Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi Tofiq Babanlı keçiblər. Seminarda hər iki rayondan 50-yə yaxın idmançı iştirak edib. Tədbir zamanı məşqçi-müəllimlərə yeni qaydalar barədə məlumat verilib, aparılan məşqlər zamanı diqqətçəkən mübahisəli məqamlar üzərində müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Səbuhi HÜSEYNOV**

***İtmişdir***

Şahbuz şəhərində yaşamış Ələkbərova Müşkünaz Ağalar qızının adına olan 181 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 845**